# Milli Məclisin Sədri Sahibə Qafarova Braziliya Deputatlar Palatasının Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində Cenevrə şəhərində Braziliya Federativ Respublikası Deputatlar Palatasının Sədri Huqo Motta ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə qeyd olunub ki, ölkələrimiz arasında coğrafi uzaqlığa baxmayaraq, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələrin daha da genişləndirilməsi üçün imkanlar mövcuddur. 2023-cü ildə ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün tamam olduğu qeyd edilərək vurğulanıb ki, yüksəksəviyyəli əlaqələr fonunda parlamentlərimiz arasında da yaxşı münasibətlər var.

Söhbət zamanı Parlament Sədrlərinin VI Dünya Konfransının qanunverici orqanların ortaq maraqlarına dair fikir mübadiləsi aparmaq baxımından yaxşı imkan olduğu qeyd edilib, belə mühüm beynəlxalq platformalar çərçivəsində əməkdaşlığın önəmi diqqətə çatdırılıb. Hər iki ölkənin parlament dostluq qrupları arasında sıx təmasların mövcud olmasından məmnunluq ifadə olunaraq, bunun parlamentlər arasında əməkdaşlığın genişlənməsinə imkan verdiyi qeyd edilib. Keçirilən görüşlərin və siyasi dialoqun parlamentlər arasında əlaqələrin daha da dərinləşdirilməsinə xidmət etdiyi vurğulanıb. Müasir dünyada mövcud olan çağırışlara qarşı birgə mübarizədə parlamentlərarası əməkdaşlığın vacibliyi bir daha qeyd edilib.

Görüşdə COP30-un Braziliyada keçiriləcəyi xatırladılaraq, ötən il Azərbaycanın COP29-a uğurla evsahibliyi etdiyi vurğulanıb. Qeyd olunub ki, bu mühüm qlobal tədbir çərçivəsində ölkəmizə səfər etmiş Braziliya nümayəndə heyətinin üzvləri Azərbaycan xalqının qonaqpərvərliyindən, bu tədbirin ən yüksək səviyyədə təşkilindən məmnunluqlarını bildiriblər. COP29 çərçivəsində Milli Məclislə Parlamentlərarası İttifaqın birgə təşkil etdiyi Parlament görüşünün uğurla baş tutduğu qeyd edilərək, Braziliyada COP30 çərçivəsində keçiriləcək Parlament konfransının təşkili ilə bağlı təcrübə mübadiləsi və əməkdaşlıq imkanları barədə də danışılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.-2025.- 30 iyul (№ 156).- S.4.